## Bakı, Sumqayıt şəhərlərində və Azərbaycan Respublikasının bir sıra rayonlarında baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması üçün maliyyə vəsaitinin ayrılması haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2000-ci il noyabr ayının 25-də Bakı, Sumqayıt şəhərlərində və ölkənin bir sıra rayonlarında baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Zəlzələ nəticəsində dəymiş ziyanın aradan qaldırılması işlərinə başlamaq üçün ilkin olaraq Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin hesabından Azərbaycan Respublikasının Fövqəladə Hallar üzrə Dövlət Komissiyasına 25 milyard manat məbləğində vəsait ayrılsın.

2. Bakı, Sumqayıt şəhərlərində və Azərbaycan Respublikasının bir sıra rayonlarında baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması üzrə yaradılmış Hökumət Komissiyasına tapşırılsın ki, zəlzələdən zərər çəkmiş binaların, qurğuların və digər obyektlərin tam bərpası üçün tələb olunan vəsaitin məbləğini dəqiqləşdirib Azərbaycan Respublikasının Prezidentinə təklif versin.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 28 noyabr 2000-ci il
580

Azərbaycan Respublikasının Qanunvericilik toplusu .- 2000.- 30 noyabr, № 11.- S.4685.